# "Ölüm də bir zarafatdı"

**Azərbaycan poeziyasında özünəməxsus yeri olan və həmişə öz dəst-xətti ilə seçilən mərhum Xalq şairi Zəlimxan Yaqub haqqında son dövrlərdə bir neçə yeni kitab işıq üzü görüb. "Zəlimxan özü var xatirələrdə" adlı kitabda şairin 2016-cı il yanvarın 9-da dünyasını dəyişməsindən sonra haqqında mətbuatda yazılmış yazılar və ona ithaf olunmuş şeirlər toplanıb.**




*"Zəlimxan Yaqub elə bir qüdrətli söz ustadıdır ki, onun kitablarına hər zaman geniş oxucu kütləsinin böyük tələbatı var"*

"Elm və təhsil" nəşriyyatında çap olunmuş kitabın tərtibçisi və "ön söz"ün müəllifi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur. O, "ön söz"də deyib ki, kitabın tərtibçisi olaraq məxsusi şəkildə kimdənsə şairlə bağlı xatirələrini yazmağı xahiş etməyib: "Yazıların, şeirlərin hamısı şairin ölümündən kədərlənənlərin ürək çırpıntılarıdır və biz onları müxtəlif mətbuat orqanlarından toplamışıq". Kitabda yer almış bədii-publisistik yazılarda və şeirlərdə Zəlimxan Yaqubun zəngin yaradıcılığından bəhs olunmaqla yanaşı, onun xeyirxahlığı, gənc yazarlara qayğısı, insani keyfiyyətləri də diqqətə çatdırılıb. Vurğulanıb ki, şair yaradıcılığında kənd və şəhər mədəniyyətlərini ortaq məxrəcə gətirərək, ədəbiyyatın, mədəniyyətin, adət-ənənənin kəndlə, şəhərlə ölçülmədiyini, insanlıqda, tərbiyədə və əxlaqda olduğunu nümayiş etdirib.

"Ölüm də bir zarafatdı" adlanan nəfis tərtibatlı digər kitabın redaktoru da Zəlimxan Yaqub irsinin araşdırıcısı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur. Yeni nəşr haqqında danışan Musa Nəbioğlu bildirib ki, Zəlimxan Yaqub elə bir qüdrətli söz ustadıdır ki, onun kitablarına hər zaman geniş oxucu kütləsinin böyük tələbatı var: "Ölkəmizdə koronavirusla əlaqədar kütləvi yubiley tədbirləri keçirilməsi mümkün olmasa da, ölməz şairin xatirəsini əsərlərindən seçmələrdən ibarət kitabla yad edib, sadiq oxucularına yeni poeziya buketi təqdim etməyi qərara aldıq".

"Xalq Əmanəti" layihəsi çərçivəsində sayca iyirminci nəşr də Azərbaycan poeziyasının klassiki, Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığına həsr olunub. "Zəlimxan Yaqub. Seçilmiş əsərləri" toplusunda şairin poetik irsi, onun yaradıcılığının müxtəlif mərhələləri əks olunub. Toplu haqqında təqdimatda qeyd olunub ki, gücünü torpaqdan, el-obadan alan Zəlimxan Yaqub xalqımızın folklor təfəkkürünü, yazılı ədəbiyyatın əsas ideyalarını, dilimizin zəngin bədii imkanlarını dərindən mənimsəyərək həyatını vətənimizin, milli-mənəvi dəyərlərimizin tərənnümünə həsr etmiş mütəfəkkir şairdir. O, Azərbaycanı bölgə-bölgə, oba-oba, oymaq-oymaq gəzir, mənsub olduğu xalqı sevərək öyrənir və özü dediyi kimi, "xalqla nəfəs-nəfəsə dayanır, ünsiyyətə girir, dərdlinin həmdərdi, söhbətcilin həmsöhbəti olur".

Musa Nəbioğlunun xalq şairi haqqında nəşrə hazırladığı və redaktoru olduğu gözəl əsərlərdən biri də "Qarabağ şikəstəsi" adlı kitabdır. İşğal altındakı torpaqlarımızın azad olunduğunu görmək ən böyük arzusu olan Xalq şairi Zəlimxan Yaqubun bu kitabına Qarabağ müharibəsi mövzusunda yazdığı şeirləri və 11 poeması daxil edilib. Vurğulanıb ki, çağdaş Azərbaycan poeziyasında özünəməxsus poetik nəfəsi olan Zəlimxan Yaqubun əsərləri xalqımıza məxsus mütləq dəyərlərin, folklor yaradıcılığı qaynaqlarından süzülüb gələn ənənələrin diriliyi ilə səciyyələnir. Ədəbiyyatımızda irsilik ideyasını tərənnüm edir. Sağlığında heykəlləşən, bənzərsiz şeirləri ilə Azərbaycan ədəbiyyatına adını əbədi həkk edən Zəlimxan Yaqub xalqımız tərəfindən hər zaman böyük sevgi və ehtiramla anılacaq.

**İsmayıl**